# İnam Ata (Asif ATA) - 90

# AYDINLARIMIZ: İNAM ATA (ASİF ATA) HAQQINDA

*Mütləqə İnam Fəlsəfəsinin Yaradıcısı, Ruhsal Ocaq Atası, Dahi Azərbaycan Filosofu İnam Atanın (Asif Atanın) 90-cı ildönümüdür (1935-1997). Oxuculara "Aydınlarımız İnam Ata (Asif Ata) haqqında" başlığı altında yazını təqdim edirəm.*

**Sayğılarla: İşıqlı ATALI**

Asif Ata fenomen kimi tarixə daxil olub. Beynində qanadlı, fantastik, çılğın şüur, damarında qeyri-adi mifik, mistik enerji axırdı. Vərəqlərə qələmindən süzülən yığcam, lakonik antitezaların, çox sərt paradoks və təzadların düzümündə və vəznində ruhunun, pərvazının ahəngi, qəlbinin vurğusunun avazı və ritmi döyünürdü. Hissin qiyamı və sözün üsyanı zahirən idillik, qılaflı və bəzəkli gerçəkliyin örtüyünü sökür və açılan yarğandan çılpaq iç, təzadlı dialektika görünürdü. Ali məktəbi tez qurtardı ki, həyat məktəbini öyrənməyə başlasın; özü demişkən, fəlsəfə dərsindən həmişə qaçdı ki, gedib həqiqi fəlsəfəni öyrənsin. Sovet rejiminin ona verdiyi bütün diplomları, titulları bir tərəfə atdı ki, hamıya qürurla elan və bəyan etdiyi Atalıq rütbəsinə gəlib çatsın. Həqiqi mənəvi və əxlaqi dəyər axtarışı - onun ömrü boyu yol getdiyi məna və məqsəd idi. Heç nədə sərhəd və ölçünü sevmirdi. Yalnız indi bir tərcümeyi-halda ölümdən sonra sevdiyi sərhədsizliyə qovuşdu. Bənzərsiz, sxemsiz, çərçivəsiz ziyalı şəxsiyyət kimi yaddaşlara həkk oldu. Bənzərsiz qaldı hər şeydə, hətta ölümündən sonra da, ölümünün və dəfninin tərzində də...

**Yaşar Qarayev,**
**AMEA-nın müxbir üzvü**

* * *

Atanın fikri, amalı çox aydındır, dərindir. Mən öz araşdırmalarımda çoxunun fikrini qəbul etməmişəm. Ancaq Atanın bütün fikirlərini qəbul etmişəm və bununla qürur duyuram.

**Elməddin Əlibəyzadə, filologiya elmləri doktoru, professor**

* * *

Asif Ata o qədər ilhamla, məhəbbətlə mühazirə oxuyurdu ki, bir tələbənin də səsi çıxmazdı. Onun dərslərində təkcə tələbələr deyil, müəllimlər də gəlib iştrak edirdilər. O, ədəbiyyatdan danışanda da fəlsəfənin dərin qatlarına gedib çıxırdı. Həqiqətən də Asif Ata məktəbə çevrilə bildi. Çox istedadlı adamlarda müəyyən qəribəliklər olur. Asif Atanın öz aləmi vardı. Bir dəfə də onu Kiyev Universitetinə ixtisasartırma kursuna yollamışdılar. O isə bir həftədən sonra qayıdıb gəldi. Arxasınca da bir məktub yolladılar. Demə, mühazirə oxuyan müəllimlərin səviyyəsi onu qane etməyib. Deyib ki, siz heç nə bilmirsiniz, səviyyəniz çox aşağıdır...
Onu həmişə sayğıyla xatırlayıram.

**Qəzənfər Paşayev, professor**

* * *

Asif Ata ilə iftixar edirəm.

**Abbas Abdulla, şair, publisist**

* * *

Asif Atanın hamıdan fərqli öz fəlsəfəsi var. O, dünyada gözü, umacağı olmayan, heç nə istəməyən, əksinə, ona verməyə çalışan insan idi. O, insanları ülviliyə, təmizliyə, bəşəri duyğulara səsləyir. Dərs deyəndə də, yazılarında da elə idi. Orta məktəbdə oxuyanda Asif Atanın təsirinə düşmüşdüm. Məqalələrini oxuyurdum və onun kimi yazmağa çalışırdım. Həmin dəftərçəmin adını "Ululuq" qoymuşdum. Ora öz fikirlərimi yazmışdım, amma təsir Asif Atadan gəlmişdi...

**Aqil Abbas,**
**yazıçı, millət vəkili**

* * *

Asif Ata Azərbaycanın fenomenal şəxsiyyətidir. Mənim həyata baxışımın formalaşmasında onun rolu olub. İşıq Asif Atanın daxilindən gəlirdi. Onun böyüklüyünü təsvir etmək çətindir. Asif Ata zamanın çərçivəsindən çıxıb. Kitabları ona əbədiyyət qazandırıb. Bəşəriyyətin əbədi yaddaşına yazılacaq insandır Asif Ata.

**Adil Əsədov,**
**fəlsəfə üzrə elmlər doktoru**

* * *

Tələbəlik vaxtı Asif Atanın çıxışları əsarətdə saxlanılan normativ düşüncələrdən seçilən mülahizələrin ictimai rəyə çatdırılmasının mümkünlüyünə bizi inandırırdı. Bu inamın sayəsində tələbələrin bir çoxu düşünməyə, fərqli fikir söyləməyə cəhd göstərirdi.
Müəllimlik həm də kiməsə buna öyrətmək deyilmi?! Asif Ata yaşadığı ömürlə də sübut etdi ki, son hamı üçündür: amma həm də elə yaşamaq olar ki, əsərinlə, sözünlə, fikirlərinlə sondan sonra da anılasan, xatırlanasan.

**Arif Əmrahoğlu,**
**ədəbiyyatşünas**

* * *

Moskvada oxuyanda məşhur müəllimlərimdən biri dərsə Asif Ata ilə şəkillərini gətirdi, dedi ki, Bakıya gedəndə Asif müəllimə salam deyərsən. 1980-ci illərin əvvəlləri idi. Bakıya gələndə Asif Ata ilə görüşdüm, Ataya həmin müəllimimin salamını yetirdim. Dedi ki, mən Moskva həyatımın üstündən xətt çəkmişəm, məsləhət görürəm sən də xətt çəkəsən.

**Aydın Dadaşov,**
**kinoşünas**

* * *

Asif Ata dünyaya bir naxış idi - gəldi bu dünyaya, fikirlərini bizə yadigar qoyub aramızdan getdi...

**Aydın Kazımzadə,**
**kinoşünas**

* * *

Asif Atanın universitetdəki estetika klubunda apardığı tədbirlərin dinləyicisi və təbliğatçısı olmuşam. O, bizim bir çoxlarımızın insan kimi, vətəndaş kimi formalaşmağımızda böyük rol oynayıb.

**Azad Qaradərəli,**
**yazıçı**

* * *

Asif Ata müdriklər müdriki idi. Elm və sənət müridlərinin mürşidi idi. Bir kəlmə sözü ilə yüz minləri ovsunlayan Asif Atanı dinləmək, məclislərinin iştirakçısı olmaq hər kəs üçün şərəf idi. O zamankı gənclərin dünyagörüşünün formalaşmasında Asif Ata ideyalarının öz payı var. Asif Ata bulağından içilən suyun mayası möhkəm olurdu.

**Bilal Alarlı,**
**araşdırmaçı**

*(Davamı var)*

**İşıqlı ATALI**